*Azərbaycan Milli Elmlər Akademiyası M.Füzuli adına Əlyazmalar İnstitutu,* *p-ISSN: 2410-5600*
*Əlyazmalar yanmır / Manuscripts don`t burn № 1, 2026*

https://doi.org/10.59849/2410-5600.2026.1.60
UOT: 82-09

**Dilbər Zamanzadə**
*Filologiya üzrə fəlsəfə doktoru*
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Bakı şəhəri, İstiqlaliyyət küç., 26*
*e-mail: dzamanzade@bk.ru*

# NİZAMİ GƏNCƏVİ YARADICILIĞINDA BƏŞƏRİ MƏNƏVİ İRSİN POETİK TƏCƏSSÜMÜ

**Xülasə**

Məqalədə Nizami Gəncəvinin yaradıcılığı əxlaqi və sosial məzmun daşıyan bədii-fəlsəfi sistem kimi təhlil olunur. Şairin "Xəmsə"si ideya baxımından insanın mənəvi kamilliyini, ədalət və mərhəmətə əsaslanan cəmiyyət modelini, eləcə də əxlaqi dəyərlərin vacibliyini ön plana çıxarır. Nizami insanı kainatın mənəvi mərkəzi kimi təqdim edir və əsərlərində universal idealları – dürüstlük, əməksevərlik, qarşılıqlı anlayış və humanizm prinsiplərini poetik və fəlsəfi dildə ifadə edir. Onun yaradıcılığı yalnız estetik zövqün təmin edilməsi ilə məhdudlaşmır, həm də oxucunu mənəvi və etik düşüncəyə sövq edən dərin mənəvi təlimləri özündə birləşdirir.

Ədalət ideyası Nizaminin poetik irsində mərkəzi yer tutur. Hökmdarlar ədalətli və vicdanlı davranmağa çağırılır, cəmiyyətin əxlaqi bütövlüyünün qorunması üçün onların dürüst və məsuliyyətli olması vacib hesab olunur. Sadə əmək adamları isə yüksək mənəvi keyfiyyətlərin daşıyıcısı kimi nümunə göstərilir, onların həyat tərzi və davranışı ictimai və siyasi münasibətlər üçün model rolunu oynayır. "Leyli və Məcnun" əsərində isə insanın daxili aləmi, mənəvi bütövlüyü və cəmiyyətlə qarşıdurması fonunda ali eşq və mənəviyyat mövzusu poetik-fəlsəfi müstəvidə işlənmişdir. Bu əsər vasitəsilə Nizami insanın mənəvi dünyasının mürəkkəbliyini və əxlaqi seçimlərinin həyat və cəmiyyət üçün əhəmiyyətini vurğulayır.

Nizaminin poetik irsi bəşəri dəyərlərin, tolerantlığın və ədalətin təbliği baxımından müasir dövr üçün də aktualdır. Məqalədə onun ədalət və əxlaq ideyaları əsas diqqət mərkəzində saxlanılmışdır. Ədalət anlayışı onun yaradıcılığında yalnız fərdi davranış prinsipi kimi deyil, həm də ictimai və siyasi münasibətlərin əsas meyarı kimi təqdim edilir. Hökmdar və rəhbərlərin ədalətli və vicdanlı olması cəmiyyətin əxlaqi bütövlüyü üçün vacibdir. Bu fikir "Sirlər xəzinəsi" və "İskəndərnamə" kimi əsərlərdə xüsusi vurğu ilə ifadə edilmişdir. Şair sadə, zəhmətkeş insanları yüksək mənəvi dəyərlərin daşıyıcısı kimi təqdim edərək, hökmdarlara onların əxlaqi keyfiyyətlərini nümunə göstərir.

***Açar sözlər:*** *Nizami Gəncəvi, bəşəri dəyərlər, ədalət və zəhmət, əxlaqi kamillik, humanizm və poeziya*

## Giriş

*Nizami Gəncəvi XII əsr Azərbaycan ədəbiyyatının və Şərq intellektual-mədəni düşüncəsinin ən parlaq nümayəndələrindən biridir. Onun yaradıcılığı estetik baxımdan zəngin olmaqla yanaşı, dərin fəlsəfi, əxlaqi və sosial məzmun daşıyan bənzərsiz bir sərvət kimi dəyərləndirilir. Nizami Gəncəvinin zəngin yaradıcılığı yüksək sənətkarlıq səviyyəsi və dərin mənəvi-fəlsəfi məzmunu ilə ümumdünya ədəbi-mədəni irsinin ayrılmaz və dəyərli tərkib hissəsinə çevrilmişdir. Onun poetik düşüncəsi və estetik dünyagörüşü klassik Şərq ədəbiyyatının ideya-fəlsəfi istiqamətlərinin formalaşmasında mühüm rol oynamış, xüsusilə XII əsrin ictimai-mədəni reallıqlarını və mənəvi-estetik axtarışlarını bədii ifadə müstəvisində parlaq şəkildə əks etdirmişdir. Nizami həm yaşadığı dövrün ədəbi-bədii*

*ənənələrini zənginləşdirmiş, həm də universal dəyərlər zəminində yeni mənəvi-estetik sistem quraraq klassik Şərq poeziyasının inkişafında dönüş nöqtəsi olmuşdur [5, s.9].*

Şairin "Xəmsə" toplusuna daxil olan əsərlərində cəmiyyətin mənəvi dəyərlər sistemi, fərdin daxili aləmi, eləcə də əxlaq, ədalət, sevgi, elmin qüdrəti kimi fundamental mövzular geniş şəkildə işlənmiş, insan varlığının mahiyyəti və onun kamillik idealı fəlsəfi-bədii kontekstdə təqdim olunmuşdur. Bu baxımdan, Nizami yaradıcılığı dərin ictimai-humanist məzmun daşıyan ideya-fəlsəfi irs kimi qiymətləndirilməlidir.

Onun əsərlərinin mənəvi təməlində ümumbəşəri dəyərlər dayanır – bu dəyərlər müxtəlif xalqlar və mədəniyyətlər üçün ortaq olan nəcib hissləri, əxlaqi prinsipləri və insani idealları ehtiva edir. Nizaminin poetik dünyasında bu dəyərlər nəinki təsvir obyekti, həm də təbliğat vasitəsi kimi çıxış edir; onun qəhrəmanları vasitəsilə oxucuya insanın öz daxili aləmində harmoniya yaratması, ədalətli cəmiyyətə xidmət etməsi və elmi-idraki fəaliyyətlə mənəvi yüksəlişə çatması kimi universal ideyalar aşılanır. Bu baxımdan, Nizami Gəncəvi yaradıcılığı həm də çağdaş humanitar düşüncə üçün mühüm ilham mənbəyidir. Nizami Gəncəvinin ədəbi irsinin ən parlaq nümunəsi sayılan və onun yaratdığı şöhrətə işıq tutan "Xəmsə" adlı lirik kompozisiyalarında o, yenilikçi düşüncələri və tərəqqiyə xidmət edən ideyaları qətiyyətlə və fasiləsiz şəkildə önə çəkir. Şairin əsərlərində destruktiv meyllərə yer yoxdur; əksinə, bərpaedici, quruculuq ruhu üstünlük təşkil edir. Onun poetikasında insanlara hörmət və məhəbbət ön plandadır, həmçinin insanların rifahının yaxşılaşdırılması üçün əxlaqi və ictimai baxımdan əhəmiyyətli fikirlər səsləndirilir. Bu düşüncə sistemi şairin yaradıcılığını zamanın sərhədlərindən kənara çıxararaq onu nəsillər boyu hörmətlə yad edilən müdrik və dərin anlamlı bir şəxsiyyət kimi tanıtdırır.

Nizaminin şeirlərində əks olunan təlimlər təkcə fərdi mənəvi tərbiyə vasitəsi olmaqla kifayətlənmir, eyni zamanda cəmiyyətin mədəni və əxlaqi inkişafına xidmət edən geniş sosial çağırış rolunu oynayır. Onun sözləri vasitəsilə oxucuya insanın daxili dünyasında sülh və harmoniyanın qurulması, ədalətin bərqərar olması və elmi-tənqidi düşüncənin təbliği mesajı verilir. Bu səbəbdən, Nizami Gəncəvi bütün dövrlərin bəşəri ideallarını təcəssüm etdirən, insanlığa sədaqətlə xidmət edən əbədi fikir insanı və şairdir.

Kamillik ideyası Nizaminin bədii-estetik sistemində mərkəzi yer tutur. İnsan onun əsərlərində cismani yox, ruhani və mənəvi potensiala malik bir varlıq kimi təqdim olunur. Bu baxışdan irəli gələrək, Nizami poeziyanı insanın daxili aləmini aydınlatmağa, onu əxlaqi və intellektual inkişaf yoluna yönəltməyə xidmət edən vasitə kimi işləyir. Şairin fikrincə, insanın kamilləşməsi təkamül xarakterli bir prosesdir və bu inkişaf bilik, hikmət, mərhəmət və sevgi kimi dəyərlərlə mümkün olur. "Xəmsə" silsiləsi bu ideyanın konkret bədii-fəlsəfi ifadəsidir. Hər bir poema insan həyatının müxtəlif mərhələlərini, psixoloji və mənəvi transformasiyaları simvolizə edən struktura malikdir. İsgəndər, Məcnun, Bəhram və Xosrov kimi obrazlar yalnız tarixi və ya romantik fiqurlar deyillər. Onlar bəşəriyyətin mənəvi-əxlaqi axtarışlarını, daxili sınaqları və kamilliyə aparan yolun mərhələlərini təmsil edirlər. Məhəmməd Əmin Rəsulzadə də "Beşlik"dəki əsərlərin dəyərindən danışarkən məsələyə oxşar yanaşmışdır: "Nizami fantaziyasının ölçüsü bax budur. Bu ölçüyə (əndazə) sadiq qalan şair "İskəndərnamə"ni "Məxzənül-əsrar"ındakı hikmətləri və "Xosrov və Şirin" ilə "Həft Peykər"indəki sənəti, "Leyli və Məcnun"undakı ruhi təhlili ilə yoğuraraq həm sənət, həm də fikir baxımından yüksək olan bu olqun əsəri ərsəyə gətirmişdir. Elə bir anıt əsər ki, onu nə zaman unutdurur, nə yağmurlar yıxar, nə də rüzgarlar uçurur" [12, s.16].

Bütün bunların fonunda Nizaminin yaradıcılığı təkcə öz dövrü üçün deyil, zamanlar və məkanlar fəzasında insan düşüncəsinə istiqamət verən bədii-fəlsəfi xəzinə kimi dəyərləndirilməlidir.

***İnsanpərvərlik və humanizm.*** Nizami Gəncəvi yaradıcılığında insan obrazı bəşəriyyətin mənəvi-ideya sistemində mərkəzi mövqedə dayanır. O, insanı kainatın ən kamil və ali varlığı kimi təqdim edərək, onun əxlaqi ucalığını və mənəvi gücünü ön plana çıxarır. Nizaminin poetik məkanında yer alan qəhrəmanlar müxtəlif etnik mənsubiyyətə, dini inanca və coğrafi mənşəyə malik olsalar da, onları birləşdirən ümumbəşəri ideallar – insanlıq, haqqın bərqərar olunması və yüksək mənəvi dəyərlər naminə göstərilən qətiyyətli mübarizədir. Şairin ideya dünyasında humanizm, qarşılıqlı

anlayış, tolerantlıq, mərhəmət və sevgi kimi dəyərlər bəşəri birgəyaşayışın əsas mənəvi dayaqları kimi təqdim olunur və onun poetik sistemində aparıcı yer tutur. Görkəmli sənətkar Nizami Gəncəvi insanlığı şəxsiyyətin ali dəyər meyarı kimi dəyərləndirirdi [10, s.84]. O, insanın mənəvi kamilliyini və əxlaqi bütövlüyünü yaradıcılığının mərkəzinə yerləşdirərək, bəşəri birlik və vəhdət ideyasını ön plana çəkirdi. Nizami yaradıcılığında irqə, milli mənsubiyyətə və dini inanca əsaslanan ayrı-seçkilik kəskin şəkildə tənqid olunur və bu cür yanaşma bəşəri dəyərlərlə ziddiyyət təşkil edən cəmiyyət modeli kimi rədd edilir. Onun poetik irsində təqdim olunan obrazlar müxtəlif millətləri, xalqları və dinləri təmsil etsələr də, onları birləşdirən ortaq ideyalar – ədalətə bağlılıq, ictimai rifah uğrunda mübarizə və ali insani məqsədlər naminə fədakarlıqdır. Nizami yaradıcılığında insan ləyaqətinə, əməyə verilən yüksək qiymət, qarşılıqlı anlaşma və hörmətin sosial münasibətlərin əsas prinsipi kimi təqdim olunması onun humanist dünyagörüşünün bədii təcəssümüdür [2, s.103]. Bu ideyalar klassik Şərq ədəbiyyatının ən mütərəqqi humanitar prinsipləri ilə səsləşir və zamanın fövqündə dayanan mənəvi dəyər kontekstində aktuallığını qoruyub saxlayır.

Nizami Gəncəvi öz bədii-fəlsəfi əsərlərində qəhrəmanlarının dili ilə davamlı olaraq vurğulayır ki, insanın inkişaf trayektoriyasında və dünyagörüşünün formalaşmasında əsas istiqaməti təlim, mənəviyyat və əxlaqi dəyərlər təşkil edir. Onun fikrincə, kainatda baş verən bütün proseslər insanın mənəvi varlığı, daxilindəki xeyir və şərin qarşılıqlı münasibəti, daxili nizam-intizamı ilə tənzimlənməlidir. Əxlaq və vicdan meyarı insani davranışın əsas istiqamətləndirici qüvvəsi kimi həm fərdi, həm də ictimai münasibətlərin mərkəzində dayanmalıdır. Nizami düşüncəsinə görə hər bir insan mütəmadi olaraq maariflənməlidir. Bilik yalnız zehni inkişaf etdirmir, eyni zamanda fərdin tərbiyəsini də formalaşdırır. Elmdən bəhrələnmiş şəxs mənəvi baxımdan da saflaşır. O, yüksək mənəviyyat sahibi obrazlarını həm də savadlı və kamil şəxsiyyətlər kimi təqdim edir. Nizami Gəncəvinin əsərlərində maarifpərvər insanlar – uşaqların tədrisi və gənclərin mənəvi formalaşması ilə məşğul olan ziyalı təbəqə xüsusi yer tutur. O, bu şəxsləri həm əxlaqi dəyərlərə bağlı, həm də dövrünün elmi biliklərinə dərindən yiyələnmiş müdrik müəllimlər kimi qələmə verir. "Leyli və Məcnun" poemasında Qeysin atası oğlunun elm öyrənməsi üçün onu savadlı bir bilik sahibinə etibar edir. "İskəndərnamə"də İsgəndərin elm öyrəndiyi müəllimi Niqumaş zəngin elmi biliyi ilə seçilən kamil bir şəxsdir [6, s.15]. Bəhramın ustadı isə yalnız səma elmlərinə deyil, həm də riyaziyyat və həndəsə sahələrində yetkin biliklərə malikdir. O, həmçinin tələbələrinə ərəb, fars və yunan dillərini də öyrədir, bu da onun çoxşaxəli təhsil verdiyini göstərir.

Bəhram öyrənmişdi ərəb, fars, yunan
Dinini məktəbdə öz ustadından.
Dərin-dərin fikir nə qədər ki, var [7, s.47].

Filosof-şair kimi Nizami ruhu insan varlığının ən fundamental tərkib hissəsi hesab edir. Onun təsəvvüründə ruh, yalnız bioloji və maddi varlıqdan ibarət olmayan insanın ali mənəvi keyfiyyətlərini – dostluq, sevgi, mərhəmət, ədalət və humanizm kimi ümumbəşəri dəyərləri daşıyan və təcəssüm etdirən əsas mahiyyətdir. Bu ruhani təməl insan davranışlarını, qərarlarını və onun sosial münasibətlərini müəyyənləşdirən mənəvi əsas rolunu oynayır.

Bununla belə, Nizami öz əsərlərində zaman-zaman bu ali mənəvi başlanğıcın, yəni insanın fitri xeyirxahlığının şər və pislik qarşısında məğlub ola bildiyini də realist yanaşma ilə göstərir. Bu məğlubiyyət təsadüfi deyil, əksinə, o, insanın psixoloji quruluşunda, daxili mənəvi ziddiyyətlərində və onun yetişdiyi sosial-mədəni mühitdə kök salan səbəblərin nəticəsidir. İnsan əxlaqının deqradasiyası cəmiyyətin mənəvi aşınması ilə sıx bağlıdır və Nizami bu problemi bədii kontekstdə dərin fəlsəfi mülahizələrlə ortaya qoyur [11, s. 84].

Nizaminin bu baxış bucağı insan dünyasını yüksək mənəvi, əxlaqi və humanist dəyərlər üzərində qurulmuş bir sistem kimi təqdim edir. Bu dünyagörüşündə insan aləmi yalnız fərdi təcrübənin deyil, həm də transsendent (ilahi və mütləq) varlığın – Tanrının təcəllası kimi dərk olunur. Beləliklə, insanın daxili mənəviyyatı ilə universal harmoniyanın uzlaşdırılması, Nizami fəlsəfəsində insanı həm maddi, həm də mənəvi aləmin mərkəzinə çevirir.

Nizami Gəncəvinin "Leyli və Məcnun" əsəri bəşəri dəyərlərə əsaslanan dərin insani məzmunu, ardıcıl və məntiqli hadisə axarı, süjet xəttinin səliqəli quruluşu, obrazların daxili aləminin dolğunluğu

və emosional təsir gücü ilə yaşadığı dövrün ədəbi ictimaiyyətində böyük maraq doğurmuşdur. Əsərdə insanın daxili aləmi, duyğu dünyası, mənəvi ziddiyyətləri incəliklə işlənmiş, sevgi amalı sadəcə şəxsi hiss deyil, həm də ali mənəvi və metafizik dəyər kimi təqdim olunmuşdur. Poemanın strukturunun mükəmməlliyi, hadisələrin məntiqi ardıcıllığı, obrazların fərdiləşdirilmiş və dərin psixoloji cizgilərlə təqdim edilməsi, onu sadəcə klassik Şərq poeziyası deyil, ümumbəşər ədəbiyyat tarixində də seçilən bir mövqeyə yüksəltmişdir.

Əsərin süjeti klassik məhəbbət dastanı motivləri üzərində qurulsa da, Nizami bu mövzuya tamamilə yeni bir nəfəs vermiş, Leyli və Məcnun obrazlarını sadə eşq qəhrəmanları deyil, ideallaşdırılmış, mənəviyyatın və ilahi eşqin rəmzinə çevrilmiş simvollar kimi təqdim etmişdir. Nizaminin bu əsəri nəinki mövzusu ilə, həm də bədii-düşüncə sistemindəki novatorluqla seçilir. O, sevgi, tənhalıq, cəmiyyətin təzyiqləri, azad iradə, mənəvi azadlıq kimi anlayışları poetik dillə fəlsəfi kontekstdə təqdim etmiş və oxucunu yalnız hiss etməyə deyil, düşünməyə də vadar etmişdir.

Səkkiz əsrdən artıq bir dövr ərzində aktual olaraq qalan bu əsər zamanın sınağından keçərək öz bədii-estetik dəyərini qoruyub saxlamışdır. Müxtəlif dövrlərdə və coğrafiyalarda bu poemaya edilən müraciətlər onun motivləri əsasında yaradılan əsərlər, tərcümələr və səhnələşdirmələr Nizaminin poetik dühasının nə qədər canlı və təsirli olduğunu təsdiqləyir. Bu baxımdan "Leyli və Məcnun" dünya mədəniyyətinə məxsus olan dəyərlər sırasında xüsusi yer tutur [4, s.71].

Poemanın əhəmiyyəti həm də ondadır ki, o, orta əsr Azərbaycan ədəbi fikrində yeni mərhələnin əsasını qoymuş, şairin fərdi üslubunu və poetik dünyagörüşünü dolğun şəkildə əks etdirmişdir. Əsərin coğrafi sərhədləri aşaraq geniş bir mədəni arealda yayılması, onun ərəb, fars, türk və daha sonra qərb dillərinə tərcümə olunaraq böyük oxucu auditoriyasına çatması bu poetik nümunənin bəşəri mahiyyətini və universal qəbulunu nümayiş etdirir. Dahi sənətkar Nizami Gəncəvi bu dastana, eyni zamanda mənəvi və yaradıcı baxımdan da dərindən bağlı olmuşdur. O, "Leyli və Məcnun" əfsanəsini öz daxili aləminin bir parçası kimi hiss etmiş, onu poetik təfəkkürünün zənginlikləri ilə bəzəmiş, təxəyyülün incə rəngləri ilə boyamış və nəticədə əsrlərlə yaşayacaq monumental bir sənət abidəsi yaratmışdır.

"Leyli və Məcnun" poemasında təqdim olunan bədii-fəlsəfi kontekst insan varlığının mənəvi dilemmasını, cəmiyyət və fərd arasında mövcud olan dəyərlər toqquşmasını dərinliklə açır. Əsər bəşəriyyətin bütün dövrlərində aktual olmuş bir sual ətrafında düşünməyə vadar edir: insan daxili azadlığını və mənəvi bütövlüyünü qorumaq naminə cəmiyyətin qaydalarına qarşı nə dərəcədə çıxa bilər? Bu baxımdan, poemanın mərkəzində duran əsas problem fərdin mənəvi iradəsi ilə ictimai normalar arasında yaranan ziddiyyətdir.

Əsərdəki qəhrəmanlar – Qeys (Məcnun) və Leyli – real obraz olmaqdan daha çox, insan ruhunun müxtəlif tərəflərini təcəssüm etdirən simvollardır. Qeys daxili mənəviyyatın, saf sevginin, maddi aləmdən uzaqlaşan ruhi azadlığın təcəssümüdür. Onun eşq uğrunda yaşadığı psixoloji gərginlik və sosial təcrid insanın bəzən öz mənəvi inancına sadiq qalmaq üçün hansı fədakarlıqlara getdiyini göstərir.

Digər tərəfdən, Leyli də idealın, əlçatmaz dəyərlərin rəmzi kimi çıxış edir. O, insan həyatında arzulanan, lakin müxtəlif sosial və ailəvi məhdudiyyətlər səbəbilə gerçəkləşməsi mümkünsüz görünən mənəvi məqsədləri təmsil edir. Bu baxımdan, Leyli ilə Məcnunun qarşılaşmaması, onların sevgisinin birləşmə ilə deyil, ayrılıq və ruhi bağlılıqla tamamlanması, insan həyatının çox zaman arzularla reallıqlar arasında baş verən tarazsızlığını göstərir. Əsərin mənəvi irsi həm də insanın daxilindəki xeyir və şər, ruh və nəfs, ağıl və hisslər arasında gedən gərgin daxili mübarizənin bədii ifadəsində özünü göstərir. Qeys obrazı vasitəsilə Nizami eşq və mənəviyyat mövzusunu fərdi seçim azadlığı, ruhi kamillik və mənəvi yüksəliş çərçivəsində təqdim edir. Bu cür yanaşma poemaya konkret tarixi-mədəni kontekstdən çıxaraq ümumbəşəri əhəmiyyət qazandırır. "Leyli və Məcnun" yalnız bir sevgi dastanı deyil, insanın öz iç dünyasını, mənəvi dəyərlərini və həyat anlamını axtarışa çıxmasıdır. Bu mənəvi miras zaman və məkan sərhədlərini aşaraq müasir insanın da içindəki suallara toxunur və onu düşünməyə vadar edir [8].

***Ədalət və əxlaqi kamillik.*** Nizami Gəncəvinin yaradıcılığında ədalət anlayışı mərkəzi ideya kimi çıxış edir və onun əsərlərinin fəlsəfi-estetik əsasını təşkil edir. Şair ədaləti ictimai münasibətlərin

və dövlət idarəçiliyinin təməl sütunu kimi təqdim edir. Bu baxımdan, Nizami ədaləti cəmiyyətin əxlaqi nizamının qorunmasında, sosial harmoniyanın təmin olunmasında və fərdlər arasında bərabərliyin təmin edilməsində zəruri şərt kimi görür.

Onun əsərlərində hökmdar və sultan obrazları ədalət prinsiplərinə uyğun fəaliyyət göstərməyə çağırılır, hakimiyyətin mahiyyəti təkcə gücdə və zənginlikdə deyil, həm də xalqın rifahına xidmət edən əxlaqi məsuliyyətdə axtarılır. Nizami bu mövqeyi ilə dövrünün feodal hakimiyyətlərinə qarşı dolayı, lakin cəsarətli bir tənqidi mövqe nümayiş etdirir. "Sirlər Xəzinəsi" və "İskəndərnamə" kimi əsərlərdə hökmdarların ədalətli və mərhəmətli olması əsas dövlətçilik meyarı kimi irəli sürülür və belə hakimlər örnək kimi təqdim edilir. Eyni zamanda, Nizami zəhmətkeş insanlara – əkinçilərə, sənətkarlara, alimlərə və sadə xalq nümayəndələrinə böyük ehtiramla yanaşır. Nizami Gəncəvi yaradıcılığında əməksevər və sadə insanların – torpaqla məşğul olan əkinçilərin, tikinti ustalarının, sənətkar və peşə sahiblərinin ictimai əhəmiyyəti xüsusi vurğulanır. O, maddi nemətləri zəhməti ilə qazanan bu şəxsləri bəzən siyasi hakimiyyət daşıyıcılarından – şah və sultanlardan daha üstün mənəvi keyfiyyətlərin daşıyıcısı kimi təqdim edir. Nizami hökmdarlara, idarəçilərə və ictimai nüfuza sahib şəxslərə bu insanların malik olduğu təmizlik, vicdan, təvazökarlıq və həqiqətpərəstlik kimi xüsusiyyətləri örnək götürməyi tövsiyə edir. Bu mənəvi mövqe xüsusilə "Süleyman və əkinçi", "Kərpickəsən kişinin dastanı" və "Zalım padşahla doğru danışan kişinin dastanı" kimi didaktik hekayətlərdə öz dolğun ifadəsini tapır. Şair bu nümunələr vasitəsilə sadə xalq nümayəndələrini yüksək əxlaqi meyarların daşıyıcısı kimi göstərir və cəmiyyətin sosial pilləsində zəhmətə etinasız yanaşan zümrələrə onları nümunə kimi təqdim edir. Bu yanaşma göstərir ki, Nizami üçün halal qazanc və zəhmətə əsaslanan həyat tərzi insan ləyaqətinin əsas göstəricisidir.

Onun düşüncəsində "halallıq" sadəcə dini və ya etik bir anlayış deyil, eyni zamanda fərdi və ictimai münasibətlərdə dəyər ölçüsünə çevrilən universal bir meyardır. Onun poetik dünyasında maddi nemətləri yaradan, cəmiyyətin təməlində duran bu insanlar mənəvi ucalığın daşıyıcıları kimi təqdim olunurlar. Şair onların əməyini yüksək dəyərləndirməklə cəmiyyətin mənəvi təbəqələşməsinə qarşı çıxır və əxlaqi baxımdan bərabərlik ideyasını irəli sürür. "Şairin əxlaq və əxlaq tərbiyəsi ilə bağlı hikmət dolu fikirləri onun "kamil insan" konsepsiyasının mühüm tərkib hissəsini təşkil edir. Bu konsepsiyaya görə hərtərəfli inkişaf etmiş kamil insan ilk növbədə əqli zənginliyi və əxlaq saflığı ilə fərqlənməlidir" [1, s.16]. Nizaminin bu baxışları onu dövrünün tipik saray şairlərindən fərqləndirir. O, sadəcə hökmdarları mədh etməklə kifayətlənməyib, onları həm də tənqid edib, ədalətli davranışa dəvət edən, xalqın səsini poetik dillə ifadə edən bir fikir adamı kimi çıxış edir. Bu səbəbdən onun ədalət ideyası sosial və siyasi mesaj daşıyan bədii-fəlsəfi mövqedir.

Nizami ədaləti və mərhəməti həm fərd, həm də cəmiyyət üçün əsas təməl prinsiplər kimi qəbul edir. O hesab edir ki, ədalət olmadığı halda nə ictimai inkişaf mümkün olar, nə də insanlıq həqiqi rifaha çata bilər. Nizaminin fikrincə, əməyə laqeyd yanaşmaq, zəhmətdən yayınmaq və mənasız, səhlənkar həyat sürmək insanı qaçılmaz olaraq asılı vəziyyətə gətirir və onu daim alçaldılmış, hörmətsiz yaşamağa məcbur edir. Belə insan başqalarının xeyirxahlığına, yardımlarına möhtac olmaq əvəzinə, yalnız öz zəhmətinin bəhrəsinə arxalanmalıdır:

*Suyun, çörəyin varsa, ora-bura can atma,*
*Əlini kəfkir kimi hər qazana uzatma!*

*Halal duz-çörəyindən doymursansa əgər sən,*
*Otu, suyu, samanı kimdir alan əlindən?*

*Onun-bunun payına göz dikməkdənsə hər gün,*
*İsanın eşşəyi tək otla dolanmaq üstün.*

*Torpaq, od olsan belə yaddan çıxarma bunu,*
*Heç nə verməz bu rüzgar, tökməsə üz suyunu [9, s.116].*

Nizaminin bu mövqeyi sosial ədalət və fərdi məsuliyyətin qovuşduğu nöqtədə dayanır. Onun poeziyasında ədalət həm də insanın daxili vicdanı və əxlaqi borcu kimi təqdim olunur. Ədalətli və mərhəmətli cəmiyyət qurmaq üçün hər bir fərd əməksevər olmalı, zəhmətini müqəddəs saymalı və başqalarının haqqına hörmət etməlidir.

Bu baxımdan, Nizami əməyin və dürüstlüyün əhəmiyyətini, eyni zamanda mənəvi yüksəlişin göstəricisi olaraq dəyərləndirir. O, insanın öz əməyi ilə qazandığı nemətə güvənməsini və başqalarının köməyinə ehtiyac olmadan, müstəqil yaşamağı ən ali dəyər hesab edir. Bu düşüncə onun sosial fəlsəfəsinin və ədalət ideyasının fundamental hissəsini təşkil edir.

## Nəticə

*Nizami Gəncəvi yaradıcılığı zamanın fövqündə dayanan, bəşəriyyətin mənəvi və estetik inkişaf trayektoriyasına dərin təsir göstərmiş çoxşaxəli poetik-fəlsəfi sistem kimi dəyərləndirilməlidir. Onun əsərləri həm klassik Şərq poeziyasının, həm də ümumbəşər ədəbi-fəlsəfi irsinin mühüm və ayrılmaz bir parçasıdır. Nizami insanı ali mənəvi keyfiyyətlərin daşıyıcısı və kainatın əxlaqi simvolu kimi təqdim edir. Bu mənada onun yaradıcılığı bəşəriyyətin mənəvi özünüşüurunu formalaşdıran nadir sənət hadisələrindən biridir.*

*Nizaminin təqdim etdiyi bədii-fəlsəfi konsepsiyada insan şəxsiyyəti yüksək mənəvi-əxlaqi meyarlar əsasında dəyərləndirilir. İnsani ləyaqət, qarşılıqlı hörmət, sevgi, mərhəmət və tolerantlıq kimi dəyərlər onun poetik sisteminin təməl sütunlarını təşkil edir. Bu xüsusiyyətlər bütövlükdə cəmiyyətin ideal strukturunu da təsvir edir. Nizami cəmiyyətin ədalətli şəkildə təşkil olunmasının, insanın daxili harmoniyası və kamilliyə doğru yönəlməsinin əsas şərti kimi mənəviyyatı və biliyi ön plana çəkir.*

*"Xəmsə"yə daxil olan əsərlərin hər biri bu ideyaların konkret poetik-fəlsəfi ifadəsidir. İsgəndər, Məcnun, Bəhram, Xosrov və digər obrazlar tarixi və romantik simvollar olmaqdan çıxaraq, əslində insanın daxili dünyasında baş verən mənəvi-mütləq axtarışların bədii təcəssümünə çevrilir. Bu obrazlar vasitəsilə Nizami insanın əxlaqi dilemması, cəmiyyətlə fərd arasındakı gərginlik, maddi və mənəvi dəyərlər toqquşması, azadlıq və qurtuluş kimi mövzuları dərin fəlsəfi təhlil obyektinə çevirir.*

*Ədəbiyyatda və fəlsəfədə ideal insan obrazını formalaşdırmaq istiqamətində mühüm addımlar atan Nizami eyni zamanda, ictimai və siyasi düzən haqqında da fikirlərini poetik dillə ifadə edir. Onun hökmdar və sultan obrazları vasitəsilə irəli sürdüyü dövlətçilik prinsipləri – ədalət, mərhəmət, xalqın rifahı və hökmdarın mənəvi məsuliyyəti – müasir dövrün idarəçilik fəlsəfəsi ilə səsləşən mühüm ideya platforması yaradır. Bu baxımdan, Nizami həm də sosial düşüncə sahəsində dərin iz qoymuş fikir adamı kimi böyük şəxsiyyətdir.*

*Digər tərəfdən, Nizaminin zəhmətə, halal əməyə və sadə insanlara verdiyi dəyər onun humanist mövqeyinin ayrılmaz hissəsidir. O, maddi nemətlərin mənəvi dəyərlərlə uzlaşmadığı təqdirdə əhəmiyyətini itirdiyini vurğulayaraq, əməyin və vicdanın cəmiyyətdə aparıcı rol oynamalı olduğunu bildirir.*

*Şairin "Leyli və Məcnun" poeması isə insanın mənəvi-emosional dünyasının zirvə nöqtəsi kimi çıxış edir. Bu əsərdə eşq mənəvi yüksəlişin və metafizik kamilliyin simvolu kimi təqdim olunur. Poemanın strukturundakı poetik kamillik və ideya dərinliyi Nizaminin yaradıcı dahiliyinin göstəricisi olmaqla yanaşı, bu əsəri ümumbəşər dəyərlərin bədii ifadəsi səviyyəsinə yüksəldir.*

*Bütün bu baxışlar fonunda demək olar ki, Nizami Gəncəvi yaradıcılığı müasir dövr üçün də aktual olan fəlsəfi və mənəvi çağırışları ehtiva edir. Onun ideyaları çağdaş dövrün dəyərlər sisteminə inteqrasiya oluna bilən ilhamverici mənbədir. Nizaminin təqdim etdiyi kamil insan modeli, ədalətə əsaslanan cəmiyyət nümunəsi və mənəviyyatın ali dəyər kimi qəbul edilməsi bu günün insanı üçün də əhəmiyyətli istiqamətverici amillərdir.*

*Nəticə etibarilə, Nizami Gəncəvi yaradıcılığı insan düşüncəsinin, mənəvi axtarışlarının və ictimai ideallarının poeziya müstəvisində bədii-fəlsəfi təcəssümüdür. Bu irs keçmişin estetik yadigarı olmaqla yanaşı, gələcəyin mənəvi istiqamətlərini müəyyənləşdirən bir işıq mənbəyidir.*

**Ədəbiyyat siyahısı:**

1. Apoyev, B. Nizami Gəncəvinin pedaqoji ideyalar sistemi. / pedaqogika üzrə üzrə elmlər doktoru dis. Avtoreferatı. / Bakı, 2017.
2. Babayeva, T.T. Nizami Gəncəvinin ədəbi irsində şəxsiyyət problemi / T.T.Babayeva. – Bakı: Nurlan. – 2000. – 198 s.
3. Begalinova, K., Ashilova, M., Begalinov, A. Features of Spiritual and Moral Teaching of Nizami Gyanjevi. Turkologia, N4(108), 2021. https://dergipark.org.tr/tr/download/article-file/2276485
4. Əlibəyzadə, E. Nizami və tariximiz / E.Əlibəyzadə. – Bakı: – 2004. – 186 s.
5. Əlimirzəyev, X. Nizami Gəncəvinin insan konsepsiyası / X.Əlimirzəyev. – Bakı:Gənclik, – 2001. – 354 s.
6. Gəncəvi, N. “İskəndərnamə”. Filoloji tərcümə. – Bakı: Elm, – 1983. s.15-16
7. Gəncəvi, N. “Yeddi gözəl”. – Bakı: Azərnəşr, – 1941. – s.47
8. Gəncəvi, N. Leyli və Məcnun. – Bakı: Lider, – 2004. – 288 s.
9. Gəncəvi, N. Sirlər Xəzinəsi. – Bakı:Lider. – 2004. – 264 s.
10. Rüstəmov, Y. Fəlsəfə fənninin əsasları / Y.Rüstəmov. – Bakı: Nurlan, – 2007. – 504 s.
11. Sultanlı, Ə. “İskəndərnamə” və Qərbi Avropa ədəbiyyatı // Bakı: Nizami Gəncəvi. Məqalələr məcmuəsi. Azərb.SSR EA nəşriyyatı, – 1947. 168 s.
12. Türkel, Y. Nizami Gəncəvinin siyasi və dini-ideoloji baxışları / Y.Türkel. – Bakı:Təknur nəşriyyatı, – 2010. – 445 s.

**Dilber Zamanzadeh**

## THE POETIC MANIFESTATION OF UNIVERSAL MORAL HERITAGE IN THE WORKS OF NIZAMI GANJAVI

*Summary*

The article examines the works of Nizami Ganjavi as an artistic-philosophical system imbued with moral and social significance. Nizami’s *Khamsa* emphasizes human moral perfection, a societal model founded on justice and compassion, and the importance of ethical values. He presents humanity as the spiritual center of the universe and conveys universal ideals such as honesty, diligence, mutual understanding, and humanism through both poetic and philosophical expression. His literary oeuvre is not limited to providing aesthetic pleasure but also offers profound moral teachings that encourage readers to engage in ethical reflection.

The concept of justice occupies a central place in Nizami’s poetic heritage. Rulers are called upon to act justly and conscientiously, as their integrity is essential for maintaining the moral cohesion of society. Ordinary working people are depicted as exemplars of high moral qualities, and their conduct serves as a model for social and political behavior. In *Layla and Majnun*, themes of supreme love and spirituality are explored against the backdrop of human inner life, moral integrity, and social confrontation, presenting them on a poetic-philosophical plane. Through this work, Nizami highlights the complexity of human morality and the significance of ethical choices for both individual life and society.

Nizami’s poetic legacy remains relevant for contemporary times in promoting universal values, tolerance, and justice. This article particularly focuses on his ideas of justice and ethics, demonstrating that in his works, justice functions not only as a principle of individual behavior but also as a fundamental criterion for social and political relations. The fairness and conscientiousness of rulers and leaders are considered indispensable for the moral integrity of society. These principles are

particularly emphasized in works such as *The Treasury of Mysteries* and *Iskandarnama*. The poet presents humble, hardworking individuals as bearers of high moral values, offering them as exemplary models for rulers to emulate in cultivating their own ethical qualities.

***Keywords:*** *Nizami Ganjavi, universal values, justice and diligence, moral perfection, humanism, poetry*